BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 *Humanitar elmlər seriyası* 2010

# 2003-cü İL İRAQ MÜHARİBƏSİ ƏRƏFƏSİNDƏ BÖYÜK GÜCLƏRİN SİYASƏTİNƏ DAİR

**A.R.BAĞIROVA**
***Bakı Dövlət Universiteti***
***aida_bagirova@yahoo.com***

*Məqalədə 2003-cü il İraq müharibəsi ərəfəsində ABŞ başda olmaqla böyük güclərin BMT TŞ çərçivəsində diplomatik-siyasi mübarizəsi öz əksini tapmışdır. Burada həmçinin onların mövqelərinin formalaşmasına təsir edən amillər araşdırılmışdır. Qeyd olunmuşdur ki, böyük güclərin siyasətinin əsasında strateji, milli-dövlət və iqtisadi maraqlar dayanırdı. Eyni zamanda bu dövrdə onlar arasında mövcud olan ziddiyyətlər geniş təhlil edilmişdir. Məqalədə həmçinin İraq müharibəsinə hazırlıq mərhələsində ABŞ-ın siyasətinin bəzi cəhətləri işıqlandırılmışdır.*

XX əsrin sonundan etibarən önəmli strateji əhəmiyyətə malik Yaxın Şərq regionu beynəlxalq münasibətlər sisteminin açar nöqtələrindən birinə, geopolitik ağırlıq mərkəzinə çevrildi: o, sadəcə böyük güclərin maraqlarının kəsişdiyi məkan deyil, eyni zamanda onların xarici siyasət xəttinin çox vacib istiqaməti oldu. Məlumdur ki, «soyuq müharibə» dövrünün bitməsindən sonra aparıcı dövlətlərin, o cümlədən ABŞ-ın hərbi-siyasi doktrinası və silahlı qüvvələrdən istifadə prinsiplərində köklü transformasiyalar baş verdi. ABŞ-ın preventiv müharibə strateji doktrinasının əsasında kütləvi qırğın silahlarının (KQS) yayılmasına və beynəlxalq terrorizm təhlükəsinə qarşı mübarizə dayanırdı, eyni zamanda genişmiqyaslı qlobal problemlərin hərbi yolla həllinin mümkün olması təşkil edirdi [1, 131].

11 sentyabr 2001-ci ilin terror hadisələrindən sonra ABŞ-ın qlobal strategiyası bütövlükdə, o cümlədən Yaxın Şərqdə ciddi korrektəyə məruz qaldı. 20 yanvar 2002-ci ildə Konqresdəki çıxışında prezident C.Buş ABŞ-a qarşı yönəlmiş bu terror aksiyasını «XXI əsrin ilk müharibəsi» adlandırdı və «terrora və terrorizmə qarşı qlobal mübarizənin» başlanmasının vacibliyini vurğuladı, «beynəlxalq terrorizmdə əli olan və onu dəstəkləyən dövlətlərə və qüvvələrə qarşı güc tətbiq etmək hüququnu ABŞ özündə saxladığını» qeyd etdi. 29 yanvar 2002-ci ildə Konqresə ünvanlanan «Ölkədəki vəziyyətə dair» illik müraciətdə C.Buş ilk dəfə İraq, Şimali Koreya və İranın daxil olduğu «şeytan üçbucağı» terminini işlətdi və ABŞ-ın hansı hədəflərə qarşı mübarizə apardığını konkret göstərdi. O, həm terrorçuların planlarının qarşısının alınmasının, onların düşərgələrinin və məskunlaşdıqları yerlərin darmadağın edilməsinin, həm də ABŞ-ı, müttəfiqlərini və bütövlükdə azad dünyanı təhdid edən terrorçu qüvvələrin və rejimlərin KQS ələ keçirilməsinə qarşı ciddi sədd çəkilməsinin vacibliyini

qeyd etdi [2, 3-4].

Əfqan müharibəsi və Taliban hökumətinin süqutundan sonra rəsmi Vaşinqton antiterror əməliyyatının ikinci hədəfi kimi İraq rejiminə qarşı mübarizənin aparılmasını elan etdi. Burada söhbət 1996-1998-ci illərdə ABŞ və İngiltərənin HHQ-nin həyata keçirdiyi əməliyyatlardan deyil, Bağdad rejiminin devrilməsinə birbaşa yönəlmiş genişmiqyaslı hərbi-siyasi aksiyanın reallaşmasıdan gedirdi. Bağdada ünvanlanan ittihamlar içərisində terror yox, KQS-nın istehsalı ön plana çəkilirdi [3, 10]. Bağdad rejiminin 11 sentyabr terror aktlarında birbaşa iştirakı haqda kəsərli arqument və dəlillər olmasa da, Vaşinqton rəsmiləri bəyan edirdilər ki, «İraq bütövlükdə Yaxın Şərqin və Körfəzin sabitliyi üçün ciddi təhlükə mənbəyinə çevrilibdir, onun lideri S.Hüseynin isə beynəlxalq qanunlara zidd hərəkətləri ABŞ və müttəfiqlərinin gələcək taleyini təhdid edir».

ABŞ prezidenti və digər rəsmilərin çoxsaylı və əsasən radikal bəyanatları ona dəlalət edirdi ki, artıq Buş administrasiyası İraqa qarşı müharibəyə hazırlaşır. Formal olaraq kampaniyanın antiterror mübarizəsi çərçivəsində aparılmasına baxmayaraq bu müharibə bir çox strateji və iqtisadi problemlərin həllinə yönəlməli idi. Bu sırada regionun siyasi mənzərəsinin dəyişdirilməsindən tutmuş neftin qiymətlərinin tənzimlənməsi və onun dünya bazarlarına maneəsiz çatdırılmasının təmin edilməsi və s.-ni göstərmək olardı. Eyni zamanda 90-cı illər ərzində ABŞ-ın İraq rejiminin «ağıllı sanksiyalar» vasitəsilə tədricən zəiflədilməsi və əhalini, sosial-iqtisadi çətinliklərə dözməyərək, hakimiyyətə qarşı sövq etmə siyasəti tam iflasa uğramışdı. Rəsmi Vaşinqton tərəfindən İraqa qarşı «qoşa sədd» prinsipinin tətbiq edilməsi və ümumilikdə özünün «İraq siyasətini» əsasən BMT vasitəsi ilə həyata keçirilməsi artıq nəinki nəzərdə tutulan effekti vermirdi, əksinə TŞ-nın daimi üzvləri arasındakı kəskin fikir ayrılığı və mənafe və maraqların toqquşması ABŞ-ın ziyanına işləməyə başlamışdı [4, 116]. Bu xətt BMT TŞ-nın 1382 saylı (29 noyabr 2001-ci il) və 1402 saylı (14 may 2002-ci il) qətnamələrinin müzakirəsi və qəbulu zamanı özünü biruzə vermişdi. ABŞ nümayəndəsi tərəfindən təqdim olunan və İraqa qarşı sanksiyaların daha da kəskinləşdirilməsini ehtiva edən təkliflər, səsverrnədə səs çoxluğu qazanmasına baxmayaraq, sonradan Rusiya və Fransa nümayəndələrinin pərdəarxası oyunları nəticəsində ciddi korrektəyə məruz qalmış, tələblərin bəziləri yumşaldılmış, bəziləri isə tamam çıxarılmışdır [5, 52].

İraq problemi ətrafında yaranmış gərgin beynəlxalq vəziyyəti nəzərə alan ABŞ administrasiyası iki istiqamət üzrə hərəkət etməyə üstünlük verirdi: BMT çərçivəsində və ondan kanarda problemin tənzimlənməsinə yönələn diplomatik-siyasi cəhdləri davam edirdi, eyni zamanda isə problemin güc müstəvisində həllinə müharibəyə hazırlaşılırdı. Hər iki istiqamətin uğurla nəticələnməsi üçün bir neçə əsas amil, o cümlədən ümumi beynəlxalq vəziyyət, regional proseslərin dinamikası, beynəlxalq və regional kontekstdə İraq probleminin tənzimlənməsi prosesinin durumu, İraqın daxili siyasi vəziyyəti, ilk növbədə, etnik və milli qrupların durumu və s. mütləq nəzərə alınmalı idi. Bu arada ABŞ Konqresinin hər iki palatası BMT-nin ilkin razılığı olmadan İraqa qarşı hərbi əməliyyatların aparılması haqda qətnamə qəbul etdi. Amma buna baxmayaraq Buş administrasiyası siyasi-diplomatik səylərini davam etdirirdi və müəyyən müddətə qədər BMT-nin qərarqəbuletmə mexanizmlərindən istifadəyə çalışırdı.

2001-ci ilin sonları – 2002-ci ilin birinci yarısında İraq probleminin dinc yollarla tənzimlənməsi məqsədilə BMT-nin Baş katibi ilə İraq rəhbərliyi arasında siyasi

dialoqun davam etdirilməsi və bunun vasitəsilə UNMOVIK ekspertlərinin ölkədəki fəaliyyətinin bərpası, onların, əvvəldən müəyyən olunmuş hərbi və mülki obyektlərdə, monitorinq və yoxlamaların aparılması təmin edildi [6, 105]. BMT və MAQATE təyin etdiyi ekspertlərin məqsədi BMT TŞ tərəfindən qəbul edilən bütün qətnamələrə Bağdad rejiminin nə dərəcədə əməl etməsini müəyyənləşdirməkdən və İraqda KQS və onların daşıyıcılarının aşkar edilməsindən ibarət idi. Paralel olaraq dünya ictimaiyyətində fikir formalaşdırılırdı ki, İraq ətrafında yaranan böhranı siyasi-diplomatik yollarla çözmək, S.Hüseyn rejimi ilə heç bir konstruktiv dialoq qurmaq mümkün deyil və adıçəkilən qurumların fəaliyyəti nəticəsiz qalacaq.

İraq rəsmiləri də bu fikirin son bəndini bölüşürdü və hesab edirdilər ki, UNMOVIK ekspertlərinin ölkəyə qayıtması və hərbi-sənaye obyektlərində KQS-nın aşkar edilməsi üçün keçirilən monitorinq və yoxlamalar heç bir fayda verməyəcək. Onların fikrincə, hətta ekspertlər heç bir şey aşkarlamasalar belə ümumi rəy İraqın əleyhinə olacaq və «ölkəyə ABŞ-ın hərbi təcavüzünün başlanması üçün bəhanə kimi istifadə ediləcək». Amma deyilənlərə rəğmən, "İraq rəhbərliyi ölkə ətrafında yaranmış vəziyyətin son dərəcə mürəkkəb və təhlükəli olduğunu anlayırdı: ABŞ-ın İraqla qonşu bölgələrə əlavə qoşun hissələrinin, HHQ və HDQ göndərməsi beynəlxalq birliyin tələblərinin qəbul etdirilməsi üçün güc nümayişi deyil; bu hərbi əməliyyatların başlanması məqsədilə edilən hərbi-siyasi hazırlıq addımlarıdır. Eyni zamanda qeyd edək ki, o dövrdə böyük güclərin əksəriyyəti vahid mövqedən çıxış edirdi və İraq hökumətindən beynəlxalq ekspertlərin tez bir zamanda ölkəyə buraxılmasını tələb edirdi» [7, 132]. BMT TŞ-nın fövqəladə toplantısında həmin məsələ müzakirə edilərkən deyilmişdir ki, əgər İraq buna qarşı çıxarsa, yeni, daha sərt qətnamənin qəbul olunması labüddür. İraq rəhbərliyi vaxtı uzatmaqla, müəyyən siyasi-diplomatik gedişlər etməklə, müxtəlif yayındırıcı bəyanatlar verməklə manevr imkanları əldə etməyə çalışırdı. Lakin mürəkkəb beynəlxalq və regional konyukturu, beynəlxalq birliklə qarşıdurmanın davam etməsinin artıq qeyri-mümkün və faydasız olmasını nəzərə alan S.Hüseyn 2002-ci ilin fevralında ölkədə UNMOVIK ekspertlərinin fəaliyyətinin bərpası məqsədilə danışıqların başlamasına razılıq verdi. BMT-nin Baş katibi K.Annan İraqın xarici işlər naziri N.Səbri ilə görüşü zamanı ona açıq şəkildə bildirmişdi ki, TŞ tərəfindən qəbul olunan müvafiq qətnamələr mütləq yerinə yetrilməlidir və bu yöndə birinci addım – heç bir şərt irəli sürmədən beynəlxalq ekspertlərlə əməkdaşlığın bərpası ola bilərdi [8, 105].

ABŞ Konqresinin məlum qətnaməsinin qəbulundan dərhal sonra İraq sərhədləri yaxınlığında yerləşən amerikan HH və HD bazalarında yeni qoşun kontinqentinin yerləşdirilməsi prosesi sürətləndi. 2002-ci ildən etibarən Vaşinqtonun siyasi-diplomatik gedişləri onu göstərirdi ki, İraq probleminin hərbi-güc ssenarisi daha ehtimal olunandır. 12 sentyabr 2002-ci ildə BMT TŞ-da çıxışı zamanı C.Buş «ABŞ-ın hərbi heqemonluq hüququnun olması və onun bütün vasitələrlə müdafiə olunması» bəyanatını səsləndirmişdir. 7 oktyabrda Amerika xalqına ünvanlanan müraciətdə o, İraq rejimini KQS istehsalında ittiham etdi və aşağıdakı tələblərin təcili yerinə yetirilməsi ultimatumunu verdi: İraq KQS malik olmasını açıq etiraf və onları məhv etməlidir; beynəlxalq terrorizmə dəstək siyasətindən əl çəkməlidir; ölkə vətəndaşlarının təqibinə son qoymalıdır; neftin BMT-nin qətnamələrindən kənar qeyri-qanuni satışını dayandırmalıdır; ölkə ərazisində saxlanan hərbi əsirlər, o cümlədən amerikalılar haqda müfəssəl məlumat verməlidir. Bu tələblərin yerinə yetirilməsindən imtina edilərsə,

«münaqişəyə BMT müdaxilə etməlidir»; «bu qurumun səyləri nəticə verməmdiyi təqdirdə problemin çözülməsi ABŞ-ın üzərinə düşməlidir» [9, 12].

2002-ci ilin oktyabrında ABŞ və Böyük Britaniya İraqa dair yeni, «daha sərt» qətnamə layihəsini BMT TŞ-nın müzakirəsinə çıxardı. Layihədə UNMOVIK ekspertlərinin ölkəyə buraxılması tələb olunurdu, əks təqdirdə dərhal güc tətbiq olunması nəzərdə tutulurdu. ABŞ-Britaniya birgə layihəsi TŞ-da qızğın müzakirələrə səbəb oldu. TŞ-nın digər üç daimi üzvü – Rusiya, Fransa və Çin layihədə təklif olunan tələblərə qarşı çıxaraq, faktiki bu qurumda böhrana rəvac verdilər [10, 196]. Rusiya hesab edirdi ki, bu mərhələdə İraqla bağlı yeni qətnamənin qəbuluna ehtiyac yoxdur, çünki artıq oktyabrda Vyanada S.Hüseynin xüsusi nümayəndəsi Ə.əs-Sədi, MAQATE-nin Baş katibi M.əl-Baradeyi və UNMOVIK başçısı H.Bliks arasında keçirilən danışıqlarda beynəlxalq ekspertlərin İraqa qayıtma mexanizminin əsas aspektləri ətrafında razılıq əldə olunmuşdur. Fransanın problemə dair mövqeyi onun həlli modelinin ikipilləli olmasından ibarət idi və bu, Rusiya və Çin tərəfindən dəstəklənirdi. Birinci mərhələdə beynəlxalq ekspertlərin İraqa buraxılması və onların fəaliyyətinin bərpasının təmin olunması nəzərdə tutulurdu. Əgər İraq hakimiyyəti bu tələblərin yerinə yetirilməsindən imtina etsə, ona qarşı güc tətbiq olunmasına dair qətnamə qəbul oluna bilərdi. Bunun üçün BMT TŞ-nın fövqəladə toplantısı çağırılmalı və 5 daimi üzvün hamısı və 15 müvəqqəti üzvündən isə 9-u «lehinə» səs verməli idilər [11, 46].

Fransanın təqdim etdiyi, Rusiya və Çinin də dəstəklədiyi layihə Vaşinqtonu və Londonu qane edə bilməzdi, amma yaranmış durumda onlar siyasi böhranın daha da dərinləşməsində maraqlı deyildilər. Ona görə də ABŞ-ın BMT-dəki daimi nümayəndəsi mübahisələrə səbəb olan layihəni geri çağırdı və 2002-ci ilin 22 oktyabrında TŞ-na onun yeniləşdirilmiş variantını təqdim etdi. Onun ümumi məzmununun əvvəlki kimi sərt olmasına baxmayaraq bu sənəddə İraqa qarşı gücün dərhal tətbiq olunması nəzərdə tutulmurdu. 8 noyabr 2002-ci ildə uzun sürən müzakirələrdən sonra BMT TŞ-nın bütün 15 üzvünün yekdilliklə səs verdiyi 1441 saylı qətnamə qəbul olundu. Onun şərtlərinə görə müəyyən vaxt ərzində İraq və BMT üzərlərinə götürdükləri bir neçə öhdəlikləri yerinə yetirməli idilər: 15 noyabra qədər İraq qətnamənin bütün şərtlərini qəbul və yerinə yetiriləcəyini bəyan etməlidir: 18 noyabrda MAQATE-nin Baş katibi M.Baradeyi və UNMOVIK rəhbəri H.Bliks. 25 noyabrda isə ekspertlər tam heyətdə Bağdada gəlməli idilər. 8 dekabra qədər İraq KQS proqramı üzrə bütün məlumatları və müvafiq sənədləri ekspertlərə təqdim etməli idi. 23 dekabra kimi ekspertlər İraqın ərazisində istənilən obyektlərdə, o cümlədən hərbi və prezidentə məxsus obyektlərdə yoxlamalar aparmalı və 21 fevraldan gec olmayaraq bütün işlərini başa çatdırmalı və müvafiq hesabatı BMT TŞ-na təqdim etməli idilər [12].

2003-cü ilin əvvəllərində ABŞ müttəfiqləri – Fransa və Almaniya ilə ziddiyyətlərinin dərinləşdiyi bir şəraitdə hərbi hazırlıqlarını davam etdirirdilər. 28 yanvar 2003-cü ildə C.Buş ənənəvi illik müraciətində S.Hüseyni tərk-silah olmamaqda və «əl-Qaidə» ilə əlaqələrdə ittiham etdi. 5 fevralda Nyu-Yorkda ABŞ-ın təşəbbüsü ilə BMT TŞ-nın xarici işlər nazirləri səviyyəsində baş tutan xüsusi toplantısında Dövlət katibi K.Pauell İraq tərəfini 1441 saylı qətnamənin şərtlərini pozmaqda suçladı. O, məxfi telefon danışıqları və peyklər vasitəsilə əldə olunan kimya zavodlarının və bioloji komponentlər istehsal edən mobil laboratoriyaların fotoşəkillərini təqdim etdi. «İraqın hərəkətlərinin beynəlxalq təhlükəsizlik üçün ciddi təhlükə mənbəyinə çevril-

məsini» vurğuladı və yaranmış vəziyyətdə «BMT-dən öz məsuliyyətini dərk etməyi və qətiyyətli və sərt qərarlar qəbul etməyi» tələb etdi [13].

İraq böhranı gedişində onu tərk-silah etmək missiyasını ABŞ-ın təkbaşına və ya koalisiya qüvvələri ilə birgə həyata keçirməsi dəfələrlə bəyan edilmişdir. Bu məqsədlə Körfəz zonasında onun 150-minlik iri hərbi qruplaşması cəmləşmişdi. Amma hərbi hazırlıqların genişlənməsinə baxmayaraq ABŞ bir sıra geopolitik amilləri, BMT TŞ-da qüvvələr nisbətini, müttəfiqlərinin və regionun aparıcı dövlətlərinin problemə münasibətini və s.-ni nəzərə almalı idi. TŞ-nın daimi üzvlərindən yalnız Böyük Britaniya ABŞ-ı tam dəstəkləyirdi. Fransa, Rusiya, Çin və habelə Almaniya İraqa qarşı hərbi əməliyyatın keçirilməsinin əleyhinə çıxırdılar və mövqelərini «İraq ətrafındakı böhranın dinc yollarla cözülməsi imkanlarının hələ də tükənmədiyini» arqumenti ilə izah etməyə çalışırdılar. Onlar «UNMOVIK ekspertlərinin fəaliyyətinin İraqda davam etdirilməsinin vacibliyini» və 1441 saylı qətnamənin tam şəkildə həyata keçrilməsinin tərəfdarı olduqlarını vurğulayırdılar [14]. Bu dövlətlərin Vaşinqtona qarşı çıxması, ilk növbədə, onların geosiyasi, milli-dövlət və iqtisadi maraqlarından irəli gəlirdi. Şübhəsiz, uğurla nəticələnən müharibə ABŞ-ın beynəlxalq arenada yeganə supergücdövlət statusunda təsdiq olması, Yaxın Şərq regionunda təsirinin artması, İraqda tək söz sahibinə çevrilməsi üçün real imkanlar yaradırdı və bu da adıçəkilən dövlətlərin strateji maraqlarına cavab vermirdi. Amma qeyd olunmalıdır ki, aparıcı dövlətlərin İraq problemi ilə bağlı ABŞ-ın yürütdüyü siyasətə və planlarına qarşı çıxması onların real antiamerikan alyansı və alternativ güc mərkəzi yaratmaq və rəqabətə girmək iqtidarında olması anlamına gəlmirdi.

## ƏDƏBİYYAT


1. Синовец П.А., Гребцов В.В. Об эволюции американской стратегии сдерживания на примере Ирака / Ближний Восток и современность. вып. 24, М.: 2004, 297с.
2. О положении в стране. Документ, представленный президентом Дж.Бушем Конгрессу США, январь 2002, 45 с.
3. Bağırova A. ABŞ-İraq: üçüncü minilliyin ikinci müharibəsi // Ekspert jurnalı, №3, 2003, s.8-14.
4. Wirtz J.J. & Russell A.A. US Policy on Preventive War and Preemption/The Nonproliferation Review. 2003, 112-122 p.
5. Lopez G., Cortright D. Containing Iraq: Sanctions Worked./Foreign Affairs – Vol.83, No.4 – July/August 2004, 123 p.
6. Гусейнов В., Денисов А., Савкин Н., Демиденко С. Большой Ближной Восток. М.: ОЛМА Медиа Групп, 2007, 592 с.
7. Arı T. Qeçmişten Günümüzde Orta Doğu. Siyaset, Savaş, Diplomasi. İst.: İsik Yayınları, 2005, 597 s.
8. İrak Savaşı Sonrası Ortadoğu. İst.: Tasam yayınları, 2004, 219 s.
9. Стратегия национальной безопасности. Выступление президента Дж.Буша, сентябрь 2002, 46 с.
10. Конфликты на Востоке: Этнические и конфессиональные. М.: Аспект Пресс, 2008, 512 с.
11. Канинская В.Н. Военная акция в Ираке: позиция Франции / сб. Иракский кризис. Международный и региональный контекст. М.: Аспект Пресс, 2003, с.37-49.
12. Резолюция 1441, принятая СБ на его 4644 заседании 8 ноября 2002 г./www.un.org
13. Выступление Госсекретаря США К.Пауэлла в СБ ООН/www.bbcrussian.com
14. Юрченко В.П. О возможных последствиях военной операции США против Ирака /www.iimes.ru

## О ПОЛИТИКЕ ВЕДУЩИХ ДЕРЖАВ НАКАНУНЕ ИРАКСКОЙ ВОЙНЫ 2003 г.

**А.Р.БАГИРОВА**

### РЕЗЮМЕ

В статье рассматриваются основные этапы политико-дипломатической борьбы ведущих держав во главе с США в СБ ООН накануне иракской войны 2003 г., а также проанализированы факторы, повлиявшие на формирование их позиций в данном вопросе. Отмечалось, что в основе проводимой ведущими державами политики стояли стратегические, национально-государственные и экономические интересы. Одновременно в статье содержится детальный анализ существовавших в тот период между этими государствами противоречий. Автор также рассмотрел некоторые аспекты политики США на этапе подготовки к иракской войне.

## ON THE POLICY OF GREAT POWERS ON THE EVE OF 2003 WAR IN IRAQ

**A.R.BAGIROVA**

### SUMMARY

The article reflects diplomatic-political struggle of great powers, especially US on the eve of 2003 War in Iraq in the framework of UNSC. This article examines the circumstances influencing the establishment of the position of these countries. It is noted that, the ground of the position of great powers was dictated by strategic, national and economic interests. Simultaneously, the author provides deep analysis of controversies between them in this period. Along with this, the article covers some aspects of US policy during the period of preparation to the war in Iraq.